# QƏDİM DİYAR

Beynəlxalq onlayn elmi jurnal

# ANCIENT LAND

International online scientific journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

## IV BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSI

## IV INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE

19.12.2023

**QƏDİM DİYAR**
**Beynəlxalq elmi jurnal**
**İmpakt Faktor**
**1.028**

# IV BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSI

DOI: https://www.doi.org/10.36719/2709-4197/2023/IV

**ANCIENT LAND**
**International scientific journal**
**Impact Factor**
**1.028**

# IV INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCES

**(19.12.2023)**

**Bakı – Baku**
**2023**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan
on 31.01.2012.
Registration No. 3534

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Press Avenue, 529,
“Azerbaijan” Publish House,
6-th floor

**Tel.:** (050) 209 59 68
(055) 209 59 68
(012) 510 63 99

**e-mail:**
qedimbeyn@gmail.com

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2707-1146**
**e-ISSN: 2709-4189**
**DOI: 10.36719**

## TƏŞKİLAT KOMİTƏSİ

**Sədr**

**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan

**Sədr müavinləri**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə

**Məsul katib**

**Tədqiqatçı Nəhayət HÜSEYİNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

## ÜZVLƏR

**Prof. Dr. Nailə VƏLİXANLI**, Tarix muzeyi / Azərbaycan
**Prof. Dr. Nərgiz AXUNDOVA**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Adil BAXŞƏLİYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Seyfəddin RZASOY,** AMEA Folklor İnstitutu / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Mübariz SÜLEYMANOV**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Sərvər ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA Tarix İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ƏLİYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh XƏLİLOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramis HƏŞİMOV**, Dağıstan Dövlət Universitetinin Dərbənd filialı / Rusiya, Dağıstan Respublikası

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan

### Deputy chairman

**Researcher Mubariz HUSEYINOV,** Azerbaijan Science Center / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL,** Erzinjan Binali Yildirim University / Turkey

### Executive secretary

**Researcher Nahayat HUSEYINLI,** Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

### MEMBERS

**Prof. Dr. Naila VALIKHANLI**, The museum of History / Azerbaijan
**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Mubariz SULEYMANOV**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Sarvar ABBASOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, The Institute of History of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh KHALILOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assoc. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, The Dagestan Republic
**Assoc. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramis HASHIMOV**, Derbend branch of Dagestan State University / Russia, The Dagestan Republic

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Günay Əkbərova**
Zəngilan rayon 33 nömrəli tam orta məktəb
doktorant
gunay.akbarova.zabil@gmail.com

# İSMƏT İNÖNÜ VƏ TÜRKİYƏDƏ LİDERLİK PARADİQMALARI: MODERNLƏŞMƏ VƏ SOSİAL TRANSFORMASİYA

***Açar sözlər:*** *İsmət İnönü, İkinci adam, Şəvkət Sürəyya Aydəmir, torpaq islahatları, modernləşmə*
***Keywords:*** *Ismet Inonu, The Second Man, Shavkat Sureyya Aydemir, land reforms, modernization*

Türkiyə Cümhuriyyətində Mustafa Kamal Atatürkdən sonra ölkənin tarixi dönüş nöqtəsində hakimiyyətə gələn İsmət İnönü öz ölkəsinin modernləşmə prosesinə rəhbərlik etmişdir.

Şəvkət Süreyya Aydəmirin "İkinci Adam" adlandırdığı İnönü təkcə döyüş meydanında deyil, siyasi arenada da təsirli bir lider idi. Bununla yanaşı o, daxili siyasətdə və beynəlxalq münasibətlərdə strateji gedişləri ilə seçilirdi. Xüsusiylə İkinci Dünya müharibəsi zamanı Türkiyəni müharibədən kənarda saxlamaq qərarı İnönünün strateji diplomat kimi bacarıqlarını nümayiş etdirməsinin nümunəsidir.

**İdeoloji təməllər: Türk Üslubu Demokratiya və Modernləşmə İdealları**

İsmət İnönü Atatürk irsini miras alaraq Türkiyəni modernləşdirməyi hədəfləyən bir ideologiyanı tətbiq etmək istəyirdi. "Türk Tipi Demokratiya" adlandırdığı bu ideologiya Türkiyənin əsas mədəniyyətini qoruyaraq demokratik prinsipləri mənimsəməyi hədəfləyirdi. İnönü bir Atatürk davamçısı olaraq ideologiyasının bir parçası kimi dünyəvilik

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

prinsipinə böyük əhəmiyyət verirdi. Dünyəvilik Türkiyənin modernləşmə siyasətində ümdə amil olduğu üçün İnönü dini və siyasi güclər arasında tarazlığı qorumaq üçün bu prinsipi tətbiq edirdi. Lakin Şəvkət Sürəyya Aydəmir və bəzi ziyalılar İnönünin bu ideologiyanı kifayət qədər effektiv şəkildə həyata keçirmədiyini, çox hissəsinin düşüncədə qaldığını müdafiə edirdilər.

**Sosial transformasiya: torpaq islahatı və modernləşmə səyləri**

İnönü dövründə sosial transformasiya səylərinə münasibət, xüsusən də torpaq islahatı kontekstində mübahisəlidir. Aydəmir İnönünin kəndlilərə qarşı siyasətini tənqid edərkən onun torpaq islahatına tərəddüdlü münasibətini vurğulayırdı. Aydəmirin sözlərinə görə, kənd təsərrüfatı məsələsi ümummilli məsələdir və bu məsələ ölkənin siyasi və sosial inkişafı ilə sıx bağlıdır. Lakin Türk İnqilabı zamanı kəndlərə, kəndlilərə və əkinçilik strukturlarına kifayət qədər diqqət və göstərilməmiş, İnönü hakimiyyətə gəldiyi dövrdə yararsız torpaqlar, ibtidai əkinçilik üsulları, məhv edilmiş meşələr, otlaqlardan düzgün istifadə edilməməsi kimi problemlərlə üzləşmişdir. Bütün bu problemlərin öhdəsindən gəlmək üçün kəndlilər və aqrar sektorda ciddi islahatlar tələb olunurdu.

Təkcə yüksək səviyyəli siyasi dəyişikliklər kəndləri və kənd təsərrüfatını müasirləşdirmək üçün kifayət etmədi. Kəndlərin ictimai quruluşuna və iqtisadiyyatına diqqət yetirən, ağalıq və bəylik kimi köhnə quruluşları aradan qaldırmağı hədəfləyən inqilabi müdaxilələrə ehtiyac var idi. Aqrar sektorun məhsuldarlığının artırılması, kəndlilərin maarifləndirilməsi, kənd təsərrüfatı məhsullarının bazara çıxarılmasına dəstək kimi tədbirlər zəruri olaraq qalırdı. Yəni İnqilabın kəndlərə çatması üçün ən yüksək səviyyədə siyasi dəyişikliklər kifayət etmədi; Eyni zamanda, kənd səviyyəsində

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

mühüm islahatlar və transformasiyalar aparılmalı idi. Bu, Türk İnqilabının uğurunu və ölkənin modernləşməsini dəstəkləyən kritik bir addım idi. Buna baxmayaraq İnönünün kəndlilərin öz iqtisadi qüdrətlərini artırmaq, torpaqla bağlı problemlərini həll etmək üçün daha təsirli addımlar atmaması onun sosial-iqtisadi transformasiyada nöqsanlarını ortaya qoyur.

İsmət İnönü Türkiyənin modernləşmə prosesində mühüm fiqur idi. Onun liderlik tərzi, ideologiyası və sosial transformasiyaya yönəlmiş səyləri 20-ci əsrin ortalarında Türkiyənin siyasi və ictimai atmosferini formalaşdırıb. Bununla belə, tənqidçilər İnönünün öz ideologiyasını tam reallaşdıra bilməməsini və sosial tələblərə adekvat cavab verməsini tənqid edirdilər.

Bugün Türkiyə İsmət İnönünün qoyub getdiyi irsi dəyərləndirərkən, keçmişin təlimlərini anlamağa, gələcəyi formalaşdırmağa çalışır. İnönünin liderlik tərzi, ideologiyası və modernləşmə səyləri Türkiyənin mürəkkəb və çətin tarixini anlamaq üçün mühüm perspektiv təmin edir.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Billurə Nuri**
Bakı Dövlət Universiteti
doktorant
billuren@mail.ru

# AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ DİMUNİTİVLİK HAQQINDA BƏZİ QEYDLƏR

***Açar sözlər:*** *diminutivlik, kiçiltmə-əzizləmə, müqayisəli, sintetik diminutivlik, analitik dimunitivlik*
***Keywords:*** *diminutiveness, comparative, synthetic diminutiveness, analytical diminutiveness*

Bu təqdiqat işində Azərbaycan və ingilis dillərində kiçiltmə-əzizləmə mənalı morfem, söz və söz birləşmələrinin, yəni diminutivlərin dilin müxtəlif səviyyələrində əhatə dairəsi və yaranma üsullarına dair bəzi ümumi məsələlər araşdırılır, diminutivlik anlayışı, onun yaranması, paylanması, məhsuldarlığı və s. müxtəlif cəhətdən tədqiq edilir. Müqayisə edilən dillərdə diminutivlərin təzahür formaları üzə çıxarılıb nümunələr əsasında təqdim edilir. Şifahi nitqdə, bədii ədəbiyyat nümunələrində, xəbərlər, jurnal, gündəlik danışıqda, akademik mətnlərdə diminutivlərdən istifadənin çoxluğu onlara ədəbi, bədii, məişət və publisistik diskursdan yanaşmanın əhəmiyyətini artırır. Azərbaycan və ingilis dillərində kifayət qədər rast gəlinən diminutivlərə həm leksem, həm morfem səviyyəsində ayrı-ayrılıqda, eləcə də müqayisəli şəkildə yanaşılır (Diminutives of English irregular plurals and optionality of umlaut, 2023).

Müqayisə edilən dillərdə diminutivlərə sintetik və analitik cəhətdən yanaşılır. Bu baxımdan onları sintetik və analitik diminutivlər şəklində qruplaşdırmaq mümkündür:

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

1. sintetik diminutivlər: Bu zaman diminutivlik dildə kiçiltmə//azal(t)ma//əzizləmə mənasını ifadə edən şəkilçilər vasitəsilə ilə düzəlir:

Azərbaycan dilində: *-ımtıl*$^{4}$*, cığaz*$^{4}$*, şın*$^{4}$*, yanız, ça*$^{2}$*, ımtıraq: qırmızımtıl, acımtıl, qızcığaz, sarışın, qarayanız, bağça, ağımtıraq* (Schneider, 2003).

İngilis dilində- ish, -e(y), -ie, -let, -ling

redd-ish, dadd -y,dogg-y, fish-ie, cut-ie, king-let, pig-let, duck-ling

İngilis dilindən fərqli olaraq, Azərbaycan dilində diminutivliyin yaranmasında fono-morfoloji üsul adlandırıla bilən forma ilə də yaranır: -p: məsələn, balaca – bapbalaca,

2. analitik diminutivlər: Bu zaman diminutivlik mənası müxtəlif sözlərin birləşərək bir konstruksiya daxilində işləənməsi ilə ifadə olunur.

Azərbaycan dilində *təhər, kəm, hal, məzə, ala* və sair sözlər bu məqamda işlənərək hansısa keyfiyyətin azalma dərəcəsini göstərir: *şirintəhər, şirinhal, kəmşirin, turşməzə, şorməzə, alayarımçıq (3).*

İngilis dilində: little, small, few, tiny

Müqayisə edilən dillərdə adlarda və ya müraciət formalarında (xitablarda) diminutivlik anlayışı geniş istifadə olunur

Azərbaycan dilində: canım, əzizim, əziz balam,

İngilis dilində: darling, dear, honey, Ann- Annie, Jim-Jimmie

Həm Azərbaycan, həm də ingilis dillərində kiçiltmələr/əzizləmələrə müxtəlif nitq hissələrində və üslublarda, dilin müxtəlif sahələrində az və ya çox dərəcədə rast gəlinməkdədir. Bu sahələr üzrə elmi işin müvafiq fəsillərinə uyğun tədqiqat aparılacaq (4).

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

## Ədəbiyyat

1. Diminutives of English irregular plurals and optionality of umlaut. (2023). Evidence for late-merge within words. Colin P.B. Davis University of Konstanz August.
2. Schneider, K. (2003). Diminutives in English. Max Niemeyer Verlag. Tubingen.
3. Dressler, V., Barbarase, M. Morphopragmatic: Dimunitives and intensifiers in Italian, German and other languages
4. Bratus, B.V. The Formation and Expressive use of Dimunitives

IV BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSI
19 dekabr 2023 / 11-13
IV INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 december 2023 / 11-13
DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Ayyət Abdullayev**
Azərbaycan Dillər Universiteti
doktorant
ayyatabdullayev@gmail.com

# MÜASİR FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SƏS TƏQLİDİ SÖZLƏRİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *səs, fonem, morfologiya, leksika, üslub*
***Keywords:*** *sound, phoneme, morphology, lexicon, style*

Dilin lüğət tərkibinin müəyyən təbəqəsini səstəqlidi sözlər təşkil edir. Bəhs edilən leksik vahidlərin dilin lüğət tərkibinin zənginləşməsində, yeni sözlərin yaranmasında mühüm rolu vardır. Onların hesabına həm fransız, həm də Azərbaycan dilində çoxlu sayda yeni leksik vahidlər (isim, fel, sifət, zərf) yaranır.

Səstəqlidi sözləri canlı və cansız təbiət səslərinin təqlidi nəticəsində yaranmış sözlərə deyilir. Canlı təbiət səsləri dedikdə müəyyən fizioloji proseslərin nəticəsində və onların vasitəsilə insanların, heyvanların, quşların, həşəratların çıxardığı səslər nəzərdə tutulur. Cansız təbiət səslərinə isə təbiət hadisələri ilə bağlı yaranan səslər aiddir (Cəfərov, 1971: 200).

Dilçilik ədəbiyyatında səstəqlidi sözləri ifadə etmək üçün "onomatoplar", "mimemlər", "ideafonlar", "təqlidi sözlər", "yamsılamalar" və s. kimi terminlərdən istifadə edilmişdir. Həm Azərbaycan, həm də fransız dillərində maraqlı səstəqlidi sözlər mövcuddur. Bu leksik-qrammatik söz kateqoriyasının müxtəlif sistemli dillərdə müqayisəli araşdırılması, onların oxşar və fərqli xüsusiyyətlərini müəyyənləşdirməyə imkan

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

verir. Dünyanın bir sıra dillərində işlənən səstəqlidi sözlərə aid xeyli sayda tədqiqat işləri yazılmışdır. Türk dillərində səstəqlidi sözlərinin öyrənilməsi N.J.Aşmarimn, Azərbaycan dilçiliyində isə bu sahədə böyük araşdırmaçı professor M.I.Adilovun adı ilə bağlıdır. Fransız dilçiliyində də səstəqlidi sözlərə aid tədqiqatlar müəyyən qədər aparılmışdır. Bu kateqoriyadan olan sözlərə daha çox dilçiliyin bu və digər problemləri ilə bağlı məsələlərdən danışılarkən toxunulmuşdur. Bu tədqiqat işləri F.de Sössürdən tutmuş, Ş.Balli M.Şastinq, V.Qak, N.Şteynberq və başqa alimlərin əsərlərini əhatə edir. Ş.Balli özünün məşhur tədqiqatında səs təqlidi sözlərdən dil işarələri nəzəriyyəsi planında bəhs etmişdir (Adilov,1979: 96).

Səstəqlidi sözlər sahəsində aktual məsələlərdən biri onların təsnifatıdır. Ümumidilçilikdə səstəqlidi sözləri üç nöqteyi-nəzərdən təsnif edilir: a) leksik-semantik xüsusiyyətlərinə görə; b) fonetik-semantik xüsusiyyətlərinə görə; c) qrammatik xüsusiyyətlərinə görə. Mövzumuza uyğun olaraq biz səstəqlidi sözlərinin qrammatik xüsusiyyətlərindən danışacağıq. Burada morfoloji üsulla söz düzəlt mədən bəhs edəcəyik. Morfoloji və sintaktik üsulla müasir fransız və Azərbaycan dillərində səstəqlidi köklərindən sözdüzəldici şəkilçilərin köməyi ilə xeyli miqdarda isim, fel, sifət və zərf yaranmışdır. Məs., Fransız dilində səstəqlidi köklərə “er" şəkilçisini artırmaqla təqlidi fellər, "ment" şəkilçisi artırmaqla isimlər düzəlir. Fikirlərimizi misallarla əyaniləşdirək: "er" şəkilçisinin köməyilə: miaou, miauler - miyoldamaq, cra-cra, craqueter - çırıldamaq. "ment" şəkilçisinin köməyilə: miaulement (m) - miyoltu, clapotement (m) – şappıltı (Ganshina, Vasilevskaya, 1964: 548).

Azərbaycan dilində də səstəqlidi köklərinə müxtəlif şəkilçilər artırmaqla düzəltmə fellər və isimlər düzəltmək mümkündür. Məsələn, -la, -lə şəkilçiləri ilə: mələmək,

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

partlamaq və s.; -ilda, -ildə, -ulda, -üldə: şaqqıldamaq, tappıldamaq; -il, -il, -ul, -ül: dombul, gumbul; -ız, -iz, -uz, -üz: toppuz, dümbuz; -ım, -im, -um, -üm; qurtum, xortum; ıltı, -ilti, -ultu, -ültü: civilti, şırıltı, xorultu və s. Bu səstəqlidi sözlər həm adi danışıqda, həm də bədii əsərlərin dilində nitqi daha qabarıq, təsirli etmək üçün işlədilir.

Beləliklə, faktiki materialların müqayisəsi göstərir ki, qarşılaşdırılan müasir fransız və Azərbaycan dillərində səstəqlidi sözlərin müqayisəli şəkildə araşdırılması, onların oxşar və fərqli xüsusiyyətlərinin müəyyənləşdirməsinə imkan verdi. Müasir franız və Azərbaycan dillərinin səstəqlidi sözləri arasında oxşarlıq onların ifadə etdikləri mənaya uyğun səslənmələri ilə bağlıdır. Bununla yanaşı hər iki dillərin səstəqlidi sözləri arasında morfoloji, leksik və üslubi cəhətdən də müəyyən oxşarlıqlar vardır. Lakin bu oxşarlıqlarla yanaşı bu iki dilin səstəqlidi sözlərində fərqli cəhətlər də vardır. Bünu isə həmin dillərin daxili qanunauyğunluqları, dil daşıyıcılarının fizioloji, psixoloji və s. imkanları, fonem tərkibinin müxtəlifliyi ilə əlaqələndirmək olar (Ayme, 1958: 495).

## Ədəbiyyat

1. Cəfərov, C. (1971). Azərbaycan dilinin qrammatikası. Bakı: Maarif, 200 s.
2. Adilov, M.İ. (1979). Azərbaycan dilində təqlidi sözlər. Bakı: BDU, 96 s.
3. Ganshina, M.A., Vasilevskaya, L.M. (1964). English Grammar. M., Foreing languages publishing house, 548 p.
4. Ayme, M. (1958). Elephant. Contes litteraire français XIX-XX e siecle. Paris : Flamarion, 495 p.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Nəsimi Novruzov**
Bakı Avrasiya Universiteti
doktorant
nsm.novruzov@gmail.com

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ AZƏRBAYCANDA LOGİSTİKANIN İNKİŞAF ETDİRİLMƏSİ PROBLEMLƏRİ VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *logistika sistemi, logistika infrastrukturu, logistika sisteminin problemləri, logistika sisteminin xüsusiyyətləri, logistika sisteminin inkişafı prespektivləri*

***Keywords:*** *logistics system, logistics infrastructure, logistics system problems, logistics system characteristics, logistics system development perspectives*

Logistika sisteminin səmərəli inkişaf etməsi bütünlükdə ölkə iqtisadiyyatının inkişafı yolunda hərəkət etməsinin əsas meyarlarından biri sayılmaqdadır. Ölkədə mövcud olan logistika infrastrukturunun səmərəli formada olması və səmərəli, faydalı şəkildə istifadə olunması respublika ərazisində nəqliyyat xidmətlərinin çevikliyinin artırılmasında, təsərrüfat subyektləri arasında davamlı olaraq fasiləsiz əlaqələrin təminatında, bu subyektlər arasında zəruri avadanlıq və xammalın çatdırılmasında sürətli əlaqələrin aparılmasında, ölkə iqtisadiyyatının inkişaf etməsində mühüm aparıcı rol oynayan əsas meyardır.

Ölkə iqtisadiyyatının inkişaf etməsinin şah damarlarından ən əsası onun nəqliyyat logistika sisteminin inkiaf etdirilməsi sayılır. Ölkə iqtisadiyyatının inkişafında ən mühüm faktorlardan biri də Azərbaycanın İpək yolu marşurutu

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

üzərində yerləşən coğrafi mövqesidir. Çünki bu yol Beynəlxalq ticarət qovşağı kimi mühüm əhəmiyyət kəsb edən marşurutlardan biridir. Ölkəmiz Asiya və Avropa qitələri arasında önəmli nəqliyyat dəhlizi kimi dəyərləndirilir. Bazar iqtisadiyyatı münasibətləri şəraitində hal hazırki müasir zamanda milli iqtsadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiya prosesinin dərinləşdiyi vaxtda iqtisadi inkişaf proseslərinin inkişaf etməsi olduqca dərinləşdiyi dövrdə bir sıra mühüm strateji əhəmiyyət kəsb edən məsələ və prioritet istiqamətlər ortaya çıxmaqdadır. Bu yönlərdən vacibi də logistika sisteminin inkişaf etdirilməsi istiqamətləridir.

Logistika sisteminin təkmilləşdirilməsi nöqteyi nəzərindən respublikamızda aparılan bir sıra layihələrin dəyərləndirilməsi baxımından nəzər salsaq bu layihələrin logistika sisteminin işinin təkmilləşdirilməsi istiqamətində nə qədər vacib olduğunu sezə bilərik. Bu layihələrə müasir avtomobil yollarının salınması, beynəlxalq nəqliyyat qovşaqlarının keçdiyi logistika-nəqliyyat infrastrukturunun formalaşdırılması kimi layihələr aid edilir. Ələt zonasında Beynəlxalq Dəniz Limanının tikintisi işinin aparılmasıyla böyük həcmli logistik limanın yaradılması sürətlə davam etməkdədir (Yadigarov, 2015: 131). Bu limanın tikintisi ilə burada böyük bir logistik mərkəz yaradılacaqdır. Bu kimi layihələrə baxmayaraq respublikamızda logistika sisteminin təkmilləşdirilməsi ilkin mərhələdədir.

Ümumilikdə dünya təcrübəsi ilə müqayisə etsək bu sahəni görə bilərikki, logistika sisteminin təkmilləşdirilməsi təşkilati-hüquqi, institutsional, iqtisadi mexanizmlərin yaradılması və inkişaf etdirilməsi tədbirlərinin gerçəkləşdirilməsi yolu ilə aparılır. Respublika iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində eyni zamanda bir sıra problemlər də vardır. Bu problemlər istehsal infrastrukturunun qurulması, xammal

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

təchizatının təmin olunması kimi məsələlərdən ibarətdir. Ölkəmizin iqtisadi rayonlarında logistika mərkəzlərinin formalaşdırılması kimi problemlər də bu qəbildəndir. Kimya sənayesinin əsas yerləşim yeri olan Sumqayıt şəhərinin və Qeyri neft sənayesinin inkişaf etdiyi Bakı şəhərində yerleşən sənaye mərkəzlərinin texnolji qurğularının həm daxili xammal, həm də xaricdən gətirilən xammal resurslarla təminatı məsələsi mühüm ehtiyac meyarlarındadır.

Çağdaş dövrün çağırışlarına uyğun olaraq Ölkəmizin ərasindən keçən nəqliyyat dəhlizlərinin yaratdığı imkanlardan geniş istifadə etməklə beynəlxalq standartlarla uzlaşan logistika mərkəzlərinin respublika ərazisində tikilməsi və onların yaratdığı geniş şanslar olduqca yüksək dəyərləndirilir. Bu kimi logistika mərkəzlərinin inkişafı dünyanın bir sıra aparıcı ölkələrinin logistika şirkətlərinin Azərbacan ərazisində fəal formada logistika sisteminin işinin aparılmasında rol oynamasında mühüm rol oynayır. Misal üçün Çin Xalq Respublikasından Türkiyə ərazisinə ticarət mallarının daşınmasında Azərbaycan ərazisindən keçən dəmiryolu şəbəkəsinin aparıcı rolunu qiymətləndirmək vacibdir. Bu kimi amillərin hamısı respublikamızda logistika sisteminin səmərəli şəkildə inkişaf etdirilməsində yüksək pay sahibidir. Ölkə Prezidenti İlham Əliyev sahibkarları respublikadan kənarda logistika mərkəzlərinin formalaşdırılmasında fəal rol oynamağa dəvət etmişdir. Və qeyd etmişdir ki, Ölkə olaraq xarici bazarları daha dəqiq təhlil etməli və yeni bazarlara çıxış imkanlarını artırmalıyıqki respublikada logistika sisteminin inkişafı və iqtisa inkişaf göstəricilərinin indeks payının artımına nail ola bilək (2).

Dövlət başçısının da bu sahəyə qayğısı onu göstərir ki, respublikamızın logistika sisteminin inkişaf etdirilməsi olduqca kifayət qədər prioritet məsələ kimi ön plana çəkilməkdədir

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

dövlət səviyyəsində. Bazar münasibətləri şəraitində qloballaşan dünya iqtisadiyyatının sürətlə inkişaf etdiyi vaxtda ölkəmizin logistika sisteminin inkişaf etdirilməsi məsələsi əsas prinsiplərdən biridir. Logistika sisteminin inkişaf etdirilməsi istiqamətində mövcud olan problemlərin sistematik formada tədqiq edilməsi və bu problemlərin həlli yollarının araşdırılması mütləq formada tələb olunan məsələlərdəndir.

Dünya ölkərinin də bu sahədə malik olduğu təcrübələrə dayanaraq respublikamızda logistika sisteminin inkişaf etdirilməsi, logistika sisteminin işinin təşkil olunması, bu sahədə mövcud problemlərin həlli yolları üçün mexanimzlərin yaradılması faktoru öncül tədbirlər sırasında olmalı və dövlətin bu sahəyə qayğısı daha da artırılmalıdır.

Sürətlə inkişaf edən iqtisadi proseslərin tüğyan etdiyi hazırki dövrdə Respublikada logistika sahəsinin, logistika sisteminin, nəqliyyat logistika sisteminin hüquqi qanunvericilik mexanizmalarının möhkəmləndirilməsi, dövlətlə özəl sektor arasında münasibətlərin artırılmasının başlıca yollarının tapılması məsələləri həm bu sahədə həm də iqtisadi göstəricilərin artım tempinin yüksəldilməsində müsbət imkanlar açmaqla logistika sisteminin də təkmilləşdirilməsi yönündə əhəmiyyət daşıyan vacib önəmli prioritet məsələlər kimi qabardılmalıdır.

## Ədəbiyyat

1. Yadigarov, T.A. (2015). Azərbaycanın xarici iqtisadi əlaqələr sistemində dəniz nəqliyyatının rolu. ADDA-nın Elmi əsərləri. «Bakı». № 1, s.129-134.
2. Prezident Əliyev sahibkarları xaricdə logistika mərkəzləri yaratmağa çağırıb. (2017). http://interfax.az/view/701122/az.

IV BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSI
19 dekabr 2023 / 18-19
IV INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 december 2023 / 18-19
DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Vüsalə Əliyeva**
Azərbaycan Dillər Universiteti
doktorant
vusale.aliyeva-76@mail.ru

# FRANSIZ DİLİNDƏ EMOSİONAL HAL VƏ VƏZİYYƏT BİLDİRƏN DİN MƏNŞƏLİ FRAZEOLOJİ VAHİDLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ İFADƏSİ

***Açar sözlər*: *frazeoloji vahid, emosional hal, ifadə forması, hərfi məna, rəmzi məna***

***Keywords:** phraseological unit, emotional state, form of expression, literal meaning, symbolic meaning*

Bir çox dillərdə olduğu kimi, fransız dilində də din mənşəli frazeoloji vahidlər frazeoloji tərkibin əhəmiyyətli hissəsini təşkil edir.

Qeyd etmək lazımdır ki, fransız xalqının xristian dininə mənsub olmasına baxmayaraq, fransız dilində həm Bibliya, həm də Quran mənşəli frazeoloji vahidlər var.

Qurani-Kərimdə deyilir: *"Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur"* (Bünyadov, Məmmədəliyev, 2005: 678). Bir çox dillərdə (xoşbəxtlikdən) *göyün yeddinci qatında olmaq*" frazeoloji ifadəsi mövcuddur: *être (ravi) au septième ciel: "Mon cher, dit-il, je suis ravi de vous voir. Je suis au septième ciel que nous soyons reunis"* (Blot, Le Soleil de Cavouri).

*Se lever du pied gauche* - səbəbi olmadan pis əhval-ruhiyyədə olmaq, hərfi mənada: "sol ayağı üstündə qalxmaq". Bir çox mədəniyyətlərdə sağ-sol tərəf rəmzi mənalara malikdir. Həm Bibliyada, həm də Qurani-Kərimdə sağ tərəf - müsbət, sol

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

tərəf isə mənfi mənaya malikdir (Bünyadov, Məmmədəliyev, 2005: 361).

"Cənnət" və "cəhənnəm" məfhumları əksər dini təlimlərdə mövcuddur və bu sözlər bir çox frazeoloji vahidin əsas komponentləridir (Micheli, Hekmat, Rabatel, 2013 : 200).

*être au paradis* - özünü xoşbəxt hiss etmək;

*paradis artificiels* - süni xoşbəxtlik, narkotiklərin hesabına əldə olunan müvəqqəti keyf. Bu ifadənin müəllifi fransız şairi Şarl Bodlerdir (Sadikhova, 2012: 333).

*avoir l'enfer dans l'âme (dans le cœur*) - vicdan əzabı çəkmək; kiməsə nifrət etmək, «ürəyində cəhənnəm gəzdirmək»;

*porter son enfer avec (en) soi* - öz sıxıntılarını, əzablarını başqalarından gizlətmək, « cəhənnəmi özü ilə gəzdirmək» (Sadikhova, 2014 : 391).

Araşdırmalar onu göstərir ki, fransız dilində din mənşəli frazeoloji vahidlərin sayı kifayət qədər çoxdur və onlar əsasən emosonal hal və vəziyyət ifadə edir (5).

## Ədəbiyyat

1. Bünyadov, Z., Məmmədəliyev, V. (2005). Qurani-Kərim. Tərcümə. Bakı, 678 s.
2. Micheli, R., Hekmat, I., Rabatel, A. (2013). Le discours et la langue. № 4(1). Les emotions argumentees dans les medias Bruxelles, 200 p.
3. Sadikhova, G.R. (2012). Bibleyskaya frazeologiya vo fransuzskom i ruskom yazikah. Baku, 333 s.
4. Sadikhova, G.R. (2014). Frazeologiya, voskhodyashaya k Biblii i Koranu. Baku, 391 s.
5. www.expressions-francaises.fr.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Zumrud Huseynova**
ANAS Institute of Philosophy and Sociology
PhD in student
ORCID ID: 0000 0003 3912 7263
zumrud.huseynova2023@gmail.com

# ADAPTATION PROCESS IN THE POSTWAR PERIOD

***Keywords:*** *adaptation, postwar, Karabakh, social life, Azerbaijan Republic*

***Açar sözlər:*** *uyğunlaşma, müharibədən sonrakı, Qarabağ, ictimai həyat, Azərbaycan Respublikası*

The post-war period is even more difficult and tense than the war period. Post-war society is an era of sensitized society. Therefore, the adaptation of the post-war period is also a sensitive issue. Adaptation can take place in every sphere of social life. For instance, social adaptation, economic adaptation, etc. Before analyzing the process of adaptation in the post-war period, let's pay attention to the explanation of the concept of adaptation. As we know adaptation is derived from the Latin word "adaptatio" and it is the adaptation of the structure and functions of organisms to environmental conditions. The term "adaptation" appeared for the first time in physiology and it was used firstly in biological sciences. This term was brought to science by the German physiologist G. Aubert and it meant sensitivity of skin analyzers to changes.

I would like to explain the process of adaptation in the post-war period after the Karabakh wars, which left a mark in the history of the Republic of Azerbaijan and became our blood memory. Social adaptation and its positive indicators existed in Azerbaijani society both in the 20th century and in the 21st

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

century. In the post-war period, the social type of adaptation of society becomes the focus of attention. The historical defeat, the displacement of refugees and internally displaced persons from their homes caused problems in the 20th century in having a significant impact on the development of the adaptation process. After the historical victory achieved in the 21st century, adaptation takes place in a completely different form. The normal activity of social life is carried out on the basis of unique social planning. For this purpose, projects involving social innovations and social technologies are implemented. Socio-economic-cultural development mechanisms are implemented comprehensively for the positive impact of the adaptation process of society members. It was decided to implement smart city and smart village projects for the normal living of refugees and internally displaced persons. One of the main priorities is the completion of the process of sustainable adaptation to social development planned for Karabakh until 2030.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Elvin Abdullayev**
Sumgait State University
elvin.abdullayev.2023@inbox.ru

# ARTIFICIAL INTELLIGENCE INFRASTRUCTURE

***Keywords:*** *car learning (ML), deep learning, large data, computer vision, model placement, ethical AI, supervised learning*
***Açar sözlər:*** *avtomobil öyrənməsi (ML), dərin öyrənmə, böyük verilənlər, kompüter görmə, model yerləşdirmə, etik AI, nəzarətli öyrənmə*

**In this article:** Why is AI infrastructure important?
- 5 key components of AI infrastructure
- Data Storage and Management
- Account Source
- Data Processing Frameworks
- Machine Learning Frames
- MLOps Platforms
- Design and set up your artificial intelligence stack

Optimize your Automobile Learning Infrastructure with Run:ai

What is the significance of AI infrastructure?

- The importance of AI infrastructure in facilitating successful AI and machine learning (ML) operations is important as a catalyst for innovation, efficiency and competitiveness. Here are some of the most important reasons why AI infrastructure is so important:
- Speed and performance: High-performance computing (HPC) skills such as GPUs or TPUS are used in well-designed AI infrastructure to perform complex calculations in parallel. As a result, machine learning algorithms are able to rapidly

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

recycle giant datasets and result in faster model training and inference. Speed is crucial in AI applications such as real-time analytics, driverless vehicles, high-speed trading. There are some delays that can cause serious damage(1).

- Scalability: The volume of data and the complexity of machine learning models can increase dramatically as AI programs expand. This expansion can be assessed with strong AI infrastructure. This enables businesses to meet future requirements without sacrificing performance or reliability.
- Cooperation and reproduction: AI infrastructure, data scientists and ML engineers are developing cooperation by creating a standardized environment. They can exchange, multiply and set up each other's work. MLOps methods and technologies that manage the last-to-last life activities of AI projects make it easier to do so, increase overall productivity and reduce the time-and-time.
- Safety and compatibility. As concerns grow about data privacy and legal requirements, a strong AI infrastructure ensures that data is handled and processed safely. It can also help comply with applicable laws and industry standards and lower any legal and reputation.
- Efficiency: While developing AI infrastructure requires a large initial investment, it can lead to significant cost reductions over time. The ECB's effective infrastructure is contributing to greater returns on investments (ROI) in ECB initiatives by maximizing resource use, reducing operational inefficiencies and accelerating time again (2).

Infrastructure for artificial intelligence in the future.

Insurance companies can better assess the risks as a result of the strength of the ECB. Manufacturers can block bottles. Doctors can prescribe the right doses to patients. Because of the strength of the ECB, insurance companies can better

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

account for the risks, while manufacturers can block bottles. Doctors can give patients appropriate doses. These are just a few examples of current AI applications. But technology and the infrastructure that supports it are growing steadily.

In the years to come, we anticipate continued advancement of computing equipment with more complex functions and the ability to support vast amounts of data. There have also been significant improvements in other components of artificial intelligence infrastructure. As a result, the following infrastructure elements will be developed (3):

• Data storage devices, lakehouses, and other data platforms will have larger volumes and a wider range of information.

• More sophisticated solutions will evaluate the quality of raw data and prepare it for tagging.

• ML engineers will be able to operate Big Data in a more convenient way in less time. DevOps can use AI to identify and address problems in the workflow early.

• Deeper learning will be absorbed by more businesses. Medical imaging analysis in healthcare and the maintenance of predictive machines in manufacturing will become increasingly common as investments in data science continue.

• Companies will switch from a interconnected platform to modular artificial intelligence architecture. They can adapt the components of ML life activities to their individual needs here (4).

## References

1. Artificial Intelligence: The Basics of Computing Agents" Author: David L. Poole and Alan K.Mackworth.
2. "Artificial Intelligence: Modern Approach" Authors: Stuart Russell and Peter Norwig.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

3. "Artificial Intelligence: New Synthesis" Author: Nils J. Nilsson.
4. "Artificial Intelligence: A Guide for Thinking People" Author: Melanie Mitchell.
5. "Life 3.0: Being a Human in an Artificial Intelligence Age" Author: Max Tegmark.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Zəhra Həşimova**
Azərbaycan Dillər Universiteti
magistrant
zehrahesimovah@gmail.com

# NƏSİMİ YARADICILIĞINDA "CAMİ-CƏM" İFADƏSİNİN MAHİYYƏTİ VƏ TƏHLİLİ

***Açar sözlər:*** *Nəsimi, hürufilik, Cəmşid, təsəvvüf, insan*
***Keywords:*** *Nasimi, hurufism, Jamshid, sufism, human*

Şərq ədəbiyyatında sıxca adı keçən, təsəvvüf mətnlərində "bütün pisliklərdən arınmış, tərtəmiz ruh "mənasında işlənən" cami-cəm "ifadəsi özünü şerlərində islam dini ehkamlarını hürufilik nöqteyi nəzərindən izah edən Nəsimi yaradıcılığında da göstərmişdir. Bu zaman "fəlsəfi əsasında panteizmin dayandığı hürufiliklə rəvayət əsaslanan "Cami-cəm "ifadəsinin nə kimi bir əlaqəsi var?" deyə bir sual ortaya çıxır. Bunu bilmək üçün ilk öncə "Cami-cəm "tezisinin mahiyyətinə varmaq lazımdır. "Cəmşidin camı "mənasını ifadə edən "Cami-cəm "təsəvvüf kontekstində varlığın əksi, mütləqin dərki baxımından hürufilikdə "insan kainatın ən dəyərli varlığıdır "ideyası bir-birinə uyğun gəlir. Bu ideyalar Şərq fəlsəfəsində mərkəz mövqe tutan sofizmin əsas prinsipi olan "insan hər şeyin: mövcud olan və olmayan bütün şeylərin ölçüsüdür "fikri ilə də eyniyyət təşkil edir. Kreasionizm dini-metafizik konsepsiyasının ideyaları ilə uyğunlaşan hürufizm düşüncələri də insan ekstaz  və ya vəcd yolu ilə onu yaradan fövqəlbəşər qüvvəyə-transendent mövqe tutan Allaha qovuşmaq üçün öz varlığını dərk etməli, özündə monizm nöqteyi nəzərdən Allahı görməlidir. Qədim yunan alimi Sokratın da ən sevdiyi zərbi-məsəl də insanın özünü dərki ilə bağlı olması onun fəlsəfi

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

fəaliyyətinin insan və onun şüuru haqqında məsələlər üzərində cəmləşdiyini göstərir.“Cami-cəm“ tezisi Nəsimi yaradıcılığında bir neçə mövqedə işlənərək şairin panteist- hürufi ideyalarını əks etdirmişdir:

Çün ləbin cami-cəm oldu nəfxeyi Ruhülqüdus,

Ey cəmilim, ey camalım bəhrü kanım, mərhaba (İmadəddin Nəsimi, 2004: 13).

Nəsiminin ərəb və fars dillərini, həmçinin “Quran” ı yaxşı bildiyini nəzərə alaraq ilk misrada öz əksini tapan “nəfxə” (nəfəs), “ruh”, “qüdus” (müqəddəs) sözləri ilə “cami-cəm” ifadəsini əlaqələndirmək olur. “Sənin dodaqların cami-cəm oldu, çünki müqəddəs ruh tərəfindən üfürülüb”. “Hər insanın bütün üz cizgilərində allahdan bir zərrə var “ideyası elə bu beytin əsasını təşkil edir.

Şair yaradıcılığında hürufizmin fəlsəfi əsaslarına görə maddi aləmin ən uca varlığı adlandırdığı insanı “mən”i daha geniş anlayış olan “haqq” ilə eyniləşdirir. Akademik Həmid Araslı “İmadəddin Nəsimi” adlı monoqrafiyasında allah-insan eyniləşdirməsilə bağlı fikirlərini bir neçə aspektdə bildirmişdir: “Hürufizm görə, dünya ilidir:

1. Gördüyümüz kainat
2. İnsan

Birinci dünyada günəş, ay, ulduzlar, bürclər, bütün səma aləmi , yer üzü və s. yerləşir. İkinci dünyada, yəni insanda bütün bu obyektiv varlıq öz əksini tapır (Araslı, 1972: 46). Deməli, insan özü “Cəmşidin camı“dır, yəni “cami-cəm”dir. Necə ki, Cəmşidin camına baxaraq dörd bir yanın sirlərindən agah olurdu, şair də sevgilisinin dodaqlarında, camalında dünyanın əksini görür. Buradan belə bir qənaətə gəlmək olar ki, kainatın bütün sirlərini insanı öyrənməklə izah etmək olar. Nəsiminin insan haqqında kredosu olan panteist – hürufi

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

ideyalarını əks etdirən digər bir qəzəlində öz varlığını, “mən"ini dərk etməyən insanları qəflət yuxusunda təsvir edir:

İtirdin Cami-Cəmşidi, oyan uyxudan, ey qafil,

Nə buldun uyxudan göstər, nə qıldın uyxudan hasil? (Imadəddin Nəsimi, 2004: 106)

Nəsimi ilk misrada “Cami-cəm” tezisini mənəvi aləmlə əlaqələndirməklə yanaşı, Cəmşidin adını da çəkmişdir. Nəsimi insanı qafil və kamil olmaqla iki qrupa ayırır. Onun fikrincə, “cami-cəm“indən, yəni öz tərkibdən, mənəvi aləmindən uzaq insan qəflət yuxusundadır. Şair “itirdin cami-Cəmşidi “deyərkən mənəviyyatını itirmiş insanı nəzərdə tutur, çünki camın bir növ, insan qəlbinin aynası olmasını nəzərə alsaq, camın gördüyü aləmin də insanın mənəvi aləmi ilə eyni olduğunu görə bilərik. Nəsimi asketizm prinsipləri ilə davranan, özünü və dünya fikirlərini dərk edən insanları kamil adlandırırdı. Mənası fikri gəzişərək ifadə etmək olan, hürufiliyin də mənbə kimi istinad etdiyi Şərq peripatetizmində də fəlsəfənin əsas vəzifəsi həqiqəti əldə etmək, onu dərk etməkdən ibarətdir. Fikrimizcə, “gözlər qəlbin aynasıdır “və yaxud” gözlərdə (simada) dünyanı görmək “ifadələri məhz elə “cami-cəm“ tezisi ilə bağlıdır. Qəlb təsəvvüfdə batini idrak mərkəzi, allahın camalını təzahür etdiyi əsas nöqtədir. Belə düşünmək olar ki, ilk nümunədəki ayna da Cəmşidin camı ilə eyni mahiyyəti kəsb edir. Nəsiminin insanı “kiçik aləm “adlandırması da təsadüfi olmamışdır. Şair insanı baxıldığı zaman “hər cizgisində mənəvi aləminin əksini tərənnüm edən ali varlıq “kimi təsvir edir.

Cəmşidi-aləm oldur mə’nidə, ey qəmər kim,

Fərxəndə surətindir cami-cahannüması (İmadəddin Nəsimi, 2004: 83).

Piyalə, qədəh, ayaq və s. kimi sözlərlə eyni mənanı əks etdirən “Cami-cəm“in bir digər adı “Cami-cahannuma“dır.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

Beytdən göründüyü kimi, şair Cəmşidin baxdığı aləmi sevgilisinin surətində görür və deyir: "Ey qəmər, Cəmşidi - aləm, camın əksinin sənin üzündəki təcəssümüdür". Bu ifadə ilə Nəsimi insan surətini aləmə açılan qapı ilə eyniləşdirirlər.

Cami-cahannüma dedilər üzünə, vəli

Həqdən mən anı ayineyi-həqnüma derəm (İmadəddin Nəsimi, 2004: 141).

Bu misralar da yuxarıda qeyd etdiyimiz fikirləri bir daha təsdiqləyir və hürufilikdə "Allahın gözəl insan surətində təcəssümü etməsi" (Araslı, 1972: 46) ideyasını da bizə xatırladır. Rəvayətlərdə yeddi maddədən hazırlandığı söylənilən Cəmşidin camı, həmçinin, yeddi fələyin sirrini açmağa nail olmuşdur. Bunu da qeyd etmək lazımdır ki, camın üzərində yeddi qitənin təsviri verilmişdir. Hürufizmin də rəqəmlərlə sıx əlaqəsini nəzərə alsaq, bu aspektdə yeddi rəqəminin sakrallığını göz önünə gətirərək "cami-cəm" ifadəsinin Nəsimi yaradıcılığında təsadüfən işlənmədiyini də bildirmək olar. Hürufizmə görə, insanın üzündə "xətti-ümmiyə" adlanan yeddi anadangəlmə xətt vardır ki, bu xətlər "Quran"ın ilk surəsi olan "Həmd" in yeddi ayəsi ilə də səsləndirilir:

Yedi ayətlə yeddi xətt tamam

Yedi ə'za ki, yeddi ümmətdir (İmadəddin Nəsimi, 2004: 27).

Bundan başqa, Nəsimi şerlərində yer, göy, dərya və s. bəşəri gözəlliklərin sayının yeddi olması "cam"ın üzərindəki yeddi qitəyə bir növ işarədir :

Yeddi yerdir, yeddi gögdür, yeddi dərya, yeddi xət,

Yeddi müshəf, yeddi ayət, yədi-beyzası nədir? (İmadəddin Nəsimi, 2004: 151).

Bəs nə üçün məhz yeddi rəqəmi? Bildiyimiz kimi, qədim türk mifoloji düşüncəsində yeddi rəqəminin xüsusi sakrallığa

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

malikdir. Bir sıra türk xalqlarının dünyagörüşündə yeddi rəqəmi xoşbəxtlik uğur rəmzidir, belə ki, mifoloji mətnlərdə dünyanın yeddi günə yaradılması haqqında məlumatlar vardır. Məhz elə bu səbəbdəndir ki, dünyada yarananlar da (planet, iqlim, bürc və s.) yeddidir.

Olubdur yeddi iqlim, yeddi ə'za,
Könül təxti dəxidir eşqi-şanım (İmadəddin Nəsimi, 2004: 328).

Məsəldə təb'imizdir yeddi qat yer,
Ağaclar tük olur, dağ üstüxanım (İmadəddin Nəsimi, 2004: 327).

Ümumiyyətlə, Nəsimi poeziyasına qədər "cami-cəm" ifadəsini klassiklərimizin–Nizami, Füzuli və başqalarının yaradıcılığında görmək mümkündür, lakin bu tezisə vəhdəti-vücud fəlsəfəsi nöqteyi nəzərindən yanaşan, hətta eyniadlı əsəri belə olan Marağalı Əvhədinin adı xüsusi vurğulanmışdır. Nəsimi sənədlərindən fərqli olaraq bu konsepsiyaya panteist-hürufilik aspektdə yanaşmış, insanı özünün, haqqın dərkinə yönəltmişdir.

## Ədəbiyyat

1. İmadəddin, Nəsimi. (2004). Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Lider Nəşriyyat, 334 s.
2. Araslı, H. (1972). İmadəddin Nəsimi. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 73 s.
3. İmadəddin, Nəsimi. (1973). Məqalələr məcmuəsi. Bakı: Elm, 270 s.
4. Babayev, Y. (2014). Azərbaycan ədəbiyyatı tarixi (XIII-XVIII əsrlər). Bakı: Elm və təhsil.
5. Xavəri, S. (2016). Milli mədəniyyət sistemində poetik təsəvvüf kodu. Bakı: Elm, 182 s.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

6. Quluzadə, M. (1973). Böyük ideallar şairi. Bakı: Gənclik, 138 s.
7. Hacıyev, Z. (2012). Fəlsəfə. Bakı: Turan evi, 486 s.
8. Imadəddin Nəsimi. (2004). Seçilmiş əsərləri 2 cilddə, ll cild. Bakı: Lider Nəşriyyat, 334 s .

IV BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSI
19 dekabr 2023 / 32-35
IV INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 december 2023 / 32-35
DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Elmira Muxtarova**
Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universiteti
magistrant
elmiramukhtarova9@gmail.com

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA CƏNUBİ KOREYA İLƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ

***Açar sözlər:*** *Qarabağ, Zəngəzur, Şuşa, Cənubi Koreya, Zəfər Günü, Xarıbülbül*

***Keywords:*** *Karabakh, Zangezur, Shusha, South Korea, Victory Day, Kharibulbul*

44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının qələbə qazandıqdan sonra Qarabağda yenidənqurma, mədəni quruculuq, bərpa işlərinin həyata keçirilməsində əməkdaşlıq etdiyi ölkələrdən biri də Cənubi Koreyadır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü tanıyan Cənubi Koreya hələ müharibə dövründə münaqişənin sülh yolu ilə həll prinsiplərindən çıxış edərək Azərbaycana dəstəyini KİV ilə göstərmiş, erməni təxribatlarını dünyaya tanıtmışdır. Cənubi Koreyanın populyar “Sisa” jurnalında Dongduk Qadın Universitetinin professoru Oh In Kyonq-un dərc etdirdiyi məqalə, “The Korea Times”, “Naewoe Ilbo”, “Korea Post” xəbərt saytları, “TBS” radiosu erməni təxribatından xəbər verirdi. Hətta Seulun ən hündür binası Lotte World Tower-də Azərbaycan bayrağı dalğalanmışdır.

Müharibə bitdikdən sonra işğal olunmuş ərazilərdə mədəni quruculuq, bərpa işlərində birgə fəaliyyət əməkdaşlığı tərəfdaşların daha da yaxınlaşmasına və mədəni əlaqələrin inkişafına müsbət təsir göstərmişdir. 2021-ci ildə Koreya

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

Respublikası Milli Assambleyasının sədri Park Byonq Soqun Azərbaycana səfəri ilə iki ölkə arasında münasibətlərin yüksəlişi, işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə Koreya şirkətlərinin dəvət olunması məsələləri müzakirə edilmişdir (1).

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO), Azərbaycanın Cənubi Koreyadakı Səfirliyinin və Koreya Beynəlxalq Ticarət Assosiasiyasının (KITA) birgə təşkilatçılığı ilə Cənubi Koreyanın paytaxtı Seulda "Azərbaycan - Koreya Ticarət və İnvestisiya Forumu: Qarabağa Böyük Qayıdış: azad olunmuş ərazilərin investisiya potensialı, cari və planlaşdırılmış layihələr" mövzusunda keçirilən tədbirdə işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərində bərpa-quruculuq, abidələrin qorunması sahəsində qarşılıqlı əməkdaşlıq təklif edilmişdir (2).

Mədəniyyət sahəsində atılan digər addımlardan biri də, 2021-ci il 14 noyabr tarixində Koreyanın Andonq şəhərində keçirilən Tarixi Şəhərlər Liqasının 18-ci Dünya konfransıdır. Tarixi Şəhərlər Liqasına üzv seçilən Şuşa şəhəri ilə bu konfrans çərçivəsində Koreyanın Andonq, Perunun Kusko və Yunanıstanın Korinf şəhərləri arasında əməkdaşlığa dair dörtərəfli niyyət protokolu imzalanmışdır. Tarixi Şəhərlər Liqası şəhərlərdə tarixi-mədəni irsin qorunması, tarixi-mədəni abidələrin qorunması və üzv şəhərlərin potensialının artırılması istiqamətində sıx əməkdaşlıq edir.

2022-ci ildə Seul şəhərinin Qanqnam rayonunda Şuşa ilinə həsr olunmuş "Azərbaycanın çay mədəniyyəti" tədbiri keçirilmişdir. Kvanak rayonunda Beynəlxalq Mədəniyyətlərarası Festivalda "Şuşa ili"nə həsr olunmuş Azərbaycan guşəsində isə ölkəmizin tarixi, zəngin mədəniyyəti, adət-ənənələri, Qarabağ həqiqətləri haqqında

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

məlumat verilmiş, ölkəmiz haqqında kitablar və milli şirniyyatlar ziyarətçilərə təqdim olunmuşdur.

2022-ci ildə Şuşa və Andonq şəhərləri arasında "Dost şəhərlər" əlaqəsinin qurulması üzrə anlaşma memorandumu da imzalanmışdır. Memoranduma əsasən, iki dost şəhər mədəni münasibətləri möhkəmlədib inkişaf etdirmək və birgə fəaliyyət sahələrini genişləndirmək məqsədiylə tərəflər arasında layihələr, tədbirlər həyata keçirəcək, incəsənət, mədəniyyət, turizm, elm sahələrində əməkdaşlıq edəcəkdir (3).

Son olaraq, Buta Koreya-Azərbaycan Dostluq Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın Koreya Respublikasındakı Səfirliyinin və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Zəfər Günü ilə əlaqədar tədbirlər də həyata keçirilmişdir. 2021-ci ildə Seul şəhərinin Şinçon ərazisində məlumatlandırma kampaniyası tədbirində Koreya dilində Zəfər Günü ilə əlaqədar hazırlanmış bröşürlər, Şuşa, Azərbaycan və Xarıbülbül haqqında informativ bannerlər, milli musiqi alətlərimiz, milli ornamentli xalçamız, milli geyimimiz nümayiş olunmuşdur (4). 2023-cü ildə isə Koreyanın İnçeon şəhərində Zəfər Gününə həsr olunmuş muğam konserti, Seul şəhərində isə "Odlar Yurduna musiqili səyahət adlı" konsert keçirilmişdir.

## Ədəbiyyat

1. Tağıbəyli, V. (2021). "Koreya şirkətləri tikinti-quruculuq işlərinə dəvət edilib". Elektron resurs. https://hafta.az/koreya-sirketleri-tikinti-quruculuq-islerine-devet-edilib-sefir-remzi-teymurov-307241-xeber.html
2. Səlimov, E. (2021). "Cənubi Koreya şirkətləri Qarabağda əməkdaşlığa dəvət olundu". Elektron resurs. https://sputnik.az/20211125/cenubi-koreya-sirketleri-qarabagda-emekdasliga-devet-olundu-436655250.html

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

3. Şuşa və Andonq şəhərləri arasında "Dost şəhərlər" əlaqəsinin qurulması üzrə anlaşma memorandumu. (2021). Elektron resurs. AZƏRTAC. https://azertag.az/xeber/susa_ve_andonq_seherleri_arasinda_dost_seherler_elaqesinin_qurulmasi_uzre_anlasma_memorandumu_imzalanib-2378579
4. Seulda "Qarabağ Azərbaycandır!" adlı məlumatlandırma aksiyası. (2021) Elektron resurs. https://seoul.mfa.gov.az/az/news/3164/seulda-qarabag-azerbaycandir-adli-melumatlandirma-aksiyasi-kecirilib-video

IV BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSI
19 dekabr 2023 / 36-40
IV INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 december 2023 / 36-40
DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Şəms Bünyatova**
Bakı Dövlət Universiteti
doktorant
shams.bunyatova@gmail.com

# EPİSTEMOLOJİ HƏQİQƏTİN SONU: JAN BODRİYAR

***Açar sözlər:*** *həqiqət, simulyasiya, Bodriyar, hiper reallıq, gerçəklik*
***Keywords:*** *truth, simulation, Baudrillard ,hyper reality, reality*

XX əsrin ortalarından modernizmin çöküşü və ona əks qütbdə qərar tutan postmodernizmin yaranması ilə dünya yeni bir bilik və texnologiya mərhələsinə keçid edir. Bu gün də düşüncələri aktuallığını itirməyən fransız filosofu Jan Bodriyar simulyasiya dövrü adlandırdığı bu çağda gerçəkliyin cavabsız tapmacaya çevrildiyini və elmi-epistemoloji həqiqətlər də daxil olmaqla hər növ həqiqətin sanki "buxarlandığını" qeyd edir. Simulyasiya nəzəriyyəsi Dekartın "cin"ini xatırlatsa da, şüuru vasitəsilə bu tələdən qurtulan Dekartdan fərqli olaraq, Bodriyar hipergerçəkliyi çıxılmaz bir aləm kimi təsvir etmişdir.

Maarifçilik dövrü mütəfəkkirlərinin modernlik ideyası insana öz gizli potensialını göstərməklə yanaşı, onun Tanrı, ənənə kimi avtoritar qüvvələrdən qurtulmasını təmin edəcək qapını araladılar (Özkiraz, 2003: 15). Maarifçilik dövrü və onun davamı olan modernlik taleyini fövqəltəbii gücün əlindən qurtararaq, ağlı özünün yol göstərəni elan edən cəmiyyət yarada biləcəyini düşünürdü. İnsan ağlına sonsuz inamın təmin olunduğu bu dövrdə həqiqət və gerçəklik anlayışları kilsədən qoparılaraq azad olunmuş fərdin əlinə verilmişdi. Xurafatlardan, doqmalardan və stereotiplərdən qurtulmaq

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

istəyən, yalnızca rasional olana etibar edən, zaman içərisində instrumentallaşan ağıl elm və texnologiyanın inkişaf etməsilə hər cür etik prinsip və dəyərlərdən məhrum olmuş, bəşər tarixi mənəvi böhrana düçar olmuşdur. Nəticədə insan dəyərlərin dəyərsizləşdiyi, mənanın itirildiyi postmodern bir dünya nizamı içərisində həyat mücadiləsi verməyə məcbur olmuşdur.

Bəşəriyyətin həqiqət ilə bağının qopduğunun ilk carçısı olan Nitşenin ardınca Teodor Adorno da gerçəklikdən virtuallığa doğru qaçan fərdlərin dünyasında həqiqətin yalan olduğunu vurğulayır. Adornoya görə, bütün düşücələr, fikirlər, xəbərlər ilk öncə ideya mərkəzlərində istehsal olunduqdan sonra bizə təqdim olunur. Bu halda mövcud həqiqət illuziyadan fərqləndirilə bilməz (Adorno, Koçak, Doğukan, 2007: 113). Potmodernizmin peyğəmbərlərindən hesab olunan fransız filosofu Jan Bodriyar da Adorno və Nitşe kimi hər şeyin surətinin çıxarıldığı bu dövrdə rasional və mütləq həqiqətə çatmağın əsla mümkün ola bilməyəcəyini qeyd edir.

Eyni zamanda, modern çağ ilə müasir dövrün mahiyyət etibarilə bir-birindən fərqləndiyini, beləliklə də həmin dövrün anlayışlar sistemi vasitəsilə bu günümüzün təhlil oluna bilməyəcəyini dilə gətirən Bodriyar epistemoloji həqiqət deyə bir qavrayışın da artıq mövcud olmadığını qeyd edir. Çünki Bodriyar fəlsəfəsi üçün artıq obyektiv gerçəkliyin, həqiqətin qeyri-mümkünlüyü xarakterikdir (Kellner, Baudrillard, 2006: 13). Filosof yanaşmasını iki iddia ilə əsaslandırır

İlk növbədə, Bodriyar karteziyan fəlsəfədən başlayaraq şüuru ideallaşdıran modern bilik anlayışını qeyri-məqbul hesab edir. Belə ki, hər bir subyektin gerçəkliyi qavrama səviyyəsi və forması fərqlidir. Məsələn yaşıl rəngin iki fərqli subyektin şüurunda necə canlandığı, hansı məna kəsb etdiyini bilməyimiz mümkünsüzdür (Baudrillard, 2015: 38). Bu halda, universal

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

obyektiv həqiqətdən söhbət gedə bilməz. Bunu Bodriyar güzgü metaforası ilə açıqlayır:

"Kainatın bir hissəsi olan insan şüuru dünyanı inikas etdirmə haqqının yalnızca özünə aid olduğunu düşünür. Güzgü əks etdirdiyi şeyin bir parçası olduğu üçün əsla obyektiv bir gerçəklik təqdim edə bilməyəcəkdir" (Baudrillard, 2015: 39).

Digər tərəfdən isə obyektiv gerçəklik ideyasının inkar olunması Bodriyar fəlsəfəsi üçün səciyyəvidir. Bu barədə, "İblisə satılmış ruh və ya şərin hökmranlığı" adlı əsərində qeyd edir: "Obyektiv dünya deyə bir şey yoxdur və dünya sadəcə fundamental illuziyadır. O, dünyanı bizə obyektiv gerçəklik kimi təqdim edən mövhümatın və ya xəyal gücünün məhsuludur" (Baudrillard, 2015: 36). Bu mənada Bodriyara görə, fəlsəfənin əsas vəzifəsi obyektiv reallıq adlandırılan bu illuziyanın əsl simasını meydana çıxarmaqdır.

Bu məqamda Bodriyarın simulyasiya nəzəriyyəsini, beləliklə də, gerçəklik və həqiqət anlayışlarına niyə skeptik yanaşdığını bilmək zəruridir. Belə ki, 1981-ci ildə nəşr olunan "Simulyakr və simulyasiya" adlı əsərində Bodriyar insan həyatına istiqamət verən həqiqət və dəyər kateqoriyalarının, eləcə də gerçəkliyin itirildiyinə dair radikal baxışlarını sistemli şəkildə əks etdirmişdir.

Bodriyara görə, virtual həqiqətlərin simulyasiya dövrünü formalaşdırdığı bir zamanda əsl həqiqət nadirən qarşılaşılacaq, gizlənmiş, daha dəqiq desək, ümumiyyətlə, real olmayan bir fenomenə çevrilmiş, onun yerini isə nisbi, plüralist həqiqətlər çoxluğu almışdır. Bodriyarın fəlsəfi terminologiyasına nəzər salsaq, həqiqətin niyə gizlənmiş yox, məhz yox olmuş bir anlayış kimi vurğulandığını izah edə bilərik. Gizlətmək dedikdə, sahib olduğumuz bir şeyi guya yoxmuş kimi göstərmək, simulyasiya isə əksinə, olmayan bir şeyi varmış kimi göstərmək nəzərdə tutulur. Bodriyarin nöqteyi nəzərincə, daha da dərinə ensək, simulyasiya

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

yoxluq, heçlik üzərində inşa olunur, beləcə də sadəcə gerçəkliyi təqlid etməklə qalmır, artıq onun yerinə keçmiş olur.

Onun fikrincə, bu gün gerçəklik və həqiqətin yerini simvollar və kodlar, maddi olanın yerini isə virtual aləm tutmuşdur. Çünki sanki bütün həqiqət obyektləri "yerin cazibə qüvvəsinin təsirindən qurtulmuş bir kütləyə, simulyakra çevrilmişdir". Ənənəvi, "əsl" gerçəklik hipergerçəklik tərəfindən udulmuş və simulyasiya bizim reallığımıza çevrilmişdir. Hipergerçəklik və ya simulyasiya dedikdə isə, gerçəkliyin heç bir mənşəyi, əsası olmayan və modellər (proqram, texnika, kompyuter) vasitəsilə süni şəkildə təkrar istehsal olunan forması başa düşülür.

Onu qeyd etməliyik ki, gerçəkliyin qeyb olduğunu deyən Bodriyar onun fiziki olaraq deyil, metafizik mənada yoxa çıxdığını nəzərdə tutur. Bodriyara görə, problemin ən dəhşətli tərəfi artıq gerçəklik ilə simulyasiya arasından heç bir sərhəddin qalmadığı, onların birinin digərindən fərqləndirməyin mümkünsüz olmasıdır. Artıq hiperreallıq "gerçəkdən daha gerçək"dir (Anthony, 1998: 94). Məsələyə bu kontekstdən yanaşsaq, deyə bilərik ki, Bodriyar fəlsəfinə əsasən, yaşadığımız dövr üçün epistemoloji həqiqətin mövcudluğundan danışmaq çətinləşir.

Çünki modern dövrdə Dekart "cogito"ya bir metod kimi istifadə edərək xarici aləmin dərk olunması və universal həqiqətə nail olmağa çalışırdı.

Lakin Bodriyar yuxarıda da vurğulandığı kimi, obyektiv həqiqətin artıq mövcud olmadığını dilə gətirərək, onun biri digərindən üstün olmayan ayrı-ayrı fərdlərin şərhlərinə əsaslanan hiper gerçəkliklə ilə əvəz olunduğunu iddia edir. Bu mənada hər kəs üçün fərqli məna kəsb edən həqiqətə universallıq və ya obyektivlik statusu verilə bilməz. Beləliklə də, subyekt və obyektin dialektik münasibətinə əsaslanan modern dönəmin

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

qnoseoloji mövqeyi bu gün reallıqla əlaqəsi kəsilmiş subyektin timsalında yox olmuşdur (Baudrillard, 2015: 12).

## Ədəbiyyat

1. Özkiraz, A. (2003). Modernləşmə nəzəriyyələri və postmodern vəziyyət. İstanbul: Çizgi Kitabevi, 154 s.
2. Adorno, T., Koçak, A., Doğukan, A. (2007). Minima Moralia. İstanbul: Metis Yayınları, 280 s.
3. Kellner, D., Baudrillard, J. (2006). After Modernity: Provocations On A Provocateur and Challenger, International Journal of Baudrillard Studies Volume 3, Number 1 (January), pp.1-37.
4. Baudrillard, J. (2015). Şeytana satılan ruh ya da şər hökmranlığı. Ankara: Doğu Batı Yayınları, 207 s.
5. Anthony, K. (1998). Baudrillard's Nihilism and the End of Theory. Telos: Critical Theory of the Contemporary. (Summer 112), pp.89-106.

**IV BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSI**
**19 dekabr 2023 / 41-45**
**IV INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE**
**19 december 2023 / 41-45**
**DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV**

**Esmira Ağayeva**
Azərbaycan Respublikası Təhsil İnstitutu
doktorant
aagayevaesmira@gmail.com

# KİÇİK YAŞLI ŞAGİRDLƏRİN BƏDİİ-ƏDƏBİ KOMPOZİSİYALAR VASİTƏSİLƏ ÖZÜNÜ İFADƏSİNİN PSİXOLOJİ VƏ PEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *yaradıcı özünü ifadə etmək, bədii fəaliyyət, bədii fəaliyyətin növləri, kiçik məktəblilərin yaradıcılıq ifadəsi*
***Keywords:*** *creative self-expression, artistic activity, types of artistic activity, creative expression of young schoolchildren*

Kiçik məktəbdə yaradıcı özünümüdafiə problemi zəngin daxili insan aləminin inkişafına, fərdi özünəməxsusluğun qorunmasına yönəlib. Bu məqalənin məqsədi bu xüsusiyyətləri açıqlamaqdır. Kiçik yaşlı məktəblilərin müxtəlif bədii fəaliyyət növlərində yaradıcılıq ifadəsi: rəsm, applikasiya, yapışqan, ədəbiyyat, musiqi, cizgi filmi və s. özünüdərk və özünü ifadə vasitələri kimi çıxış edir. Bununla da, bədii fəaliyyət kiçik yaşlı məktəblilərin özünü ifadə etməsinin əsas amili kimi çıxış edir.

Məlumdur ki, insan olmağın əsas amillərindən biri yaradıcılıqla başlayır. Hər kəsə məlumdur ki, yaradıcılıq uşaqlıqdan başlayır. Ətraf dünyanı tanımağa və ona münasibət göstərməyə çalışarkən uşaq birbaşa uşaq fəaliyyətinin ən vacib növlərindən biri kimi incəsənət sahəsində yaradıcılığa müraciət edir. Buna görə də kiçik məktəb yaşına insanın yaradıcılıq inkişafının sensitiv dövrü kimi müraciət etmək olar və bu labüddür (Abayevaş, Barmaş, 1993). Bədii yaradıcılıqla maraqlanan uşaq öz gücünü məşq edir, özündə bir sıra dəyərli

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

mənəvi keyfiyyətlər yetişdirir. Onun şəxsiyyəti sosiallaşır, vətəndaş xüsusiyyətləri inkişaf edir. Kiçik məktəblilərin təsviri yaradıcılığında yaradıcılıq potensialının inkişafına yönəlmiş bədii mühitin təşkilinin sosial-pedaqoji şəraitinin tədqiqi üçün lazımi nəzəri və praktiki şərtlər yaradılmışdır.

Belə ki, filosoflar və psixoloqlar V.F.Asmus, N.A.Berdyaev, V.D.Qubin, V.M.Vilçek, V.N.Drujinin, A.Kamyu, P.V.Simonov, K.Q.Yunq və s. əsərlərində yaradıcılıq fenomeni nəzərdən keçirilir. Burada yaradıcılıq şəraitini yaratmaqla və dəyişdirməklə insan paralel olaraq özünü yaratır, dəyişdirir, yəni yaradıcı özünü inkişaf etdirir. Uşaq yaradıcılığında rəsm çəkmənin əhəmiyyəti probleminə aparıcı alimlər müraciət edirdilər (Abayeva, Barlaş, 1994). Buna misal olaraq, C.C.Russo, Y.A.Komenski bu əhəmiyyəti uşağın görmə qabiliyyətinin, əlinin inamının inkişafında görürdülər. Rəssamlığın tədrisi vəzifəsini insanın bütün mənəvi qüvvələrinin hərtərəfli ümumi təhsilinə və harmonik inkişafına kömək kimi I.Q.Pestalotsi öz əsərlərində müəyyənləşdirmişdir.

İncəsənət vasitəsilə həqiqəti əks etdirən, onun özünəməxsusluğunu və formalarını nəzərdə tutan, uşağın obrazlı şəkildə "dünyada özünü" təmsil etdiyi bədii mühit kiçik məktəblilərin yaradıcılıq potensialının inkişafına kömək edir. Bədii mühitin təşkili üçün şərait yaratmaq: həssas təcrübə qazanmaqda ətraf mühitin fəal tədqiqi və onun haqqında bilik əsasında obyektiv həqiqətin refleksiyası; uşağın bədii yaradıcılıqda, təsviri sənətlə ünsiyyətdə dünyanı çoxaspektli əks etdirməsində açıq dialoq; uşaq bədii əsərlərinin orijinallıq səviyyəsinin inkişafında daxili motivlərin üstünlüyü - kiçik məktəblilərin yaradıcılıq potensialının inkişafında aparıcı amildir və bu tədris-tərbiyə prosesinin məzmununu müəyyən edir (Aminov, 1993). Bədii mühitin təşkilinin sosial-pedaqoji şəraiti təsviri incəsənət dərslərində tədris prosesinin məktəbdən kənar

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

vaxtlarda kiçik məktəblilərin axtarış-tədqiqat fəaliyyəti ilə inteqrasiyası zamanı təhsil prosesinin bütövlüyünü təmin edir; uşaqların bədii mühitin müqayisə olunan iki cəhəti - ilkin təbiəti və maddi-mənəvi dəyərləri ilə ünsiyyət qurmaları; bədii qabiliyyətlərin digər yaradıcı fəaliyyət növlərinə köçürülməsi imkanları meydana çıxır. Sosial-pedaqoji şəraitin yaradılmasının əsas prinsipləri şagirdin özünü müəyyənləşdirmək və özünü inkişaf etdirmək qabiliyyətinə malik azad və mənəvi şəxs kimi nəzərdən keçirilən təhsil və tərbiyənin humanlaşdırılması; incəsənəti qəbul edərkən onun emosional-duyğu təbiətini bədii obraza salmaq və anlamaq üçün inteqrasiya prinsipi; dialoq; məktəblinin estetik cəhətdən rahat mühitini yaradan həyat-ekspozisiya prinsipi kimi çıxış edir (Basin, 1985). Aparılan tədqiqatlar uşaqların yaradıcılıq potensialının inkişafının qlobal probleminin bir hissəsidir. Bu problemin həlli şagirdlərlə bağlı bütün problemləri əhatə etmir. Tədqiq olunan keyfiyyətin inkişafında ailə tərbiyəsinin rolunun öyrənilməsi, məktəblə məktəbdən kənar müəssisələr arasında bu istiqamətdə işlərin əlaqələndirilməsi və s. məsələlər açıq qalıb. Bu məsələlərin həlli kiçik məktəblilərin yaradıcılıq potensialının inkişafı üçün qanunauyğunluqların və vasitələrin daha dərindən öyrənilməsinə kömək edəcək. Bizim bundan sonrakı tədqiqatlarımız bu istiqamətə yönəlmişdir (Bondarevskaya, Kulneviç, 1999). Yerli məktəbin praktikasında şagirdlərin bədii-yaradıcılıq qabiliyyətlərinin inkişafı məktəb təhsilinin humanlaşdırılması ilə əlaqələndirilir. Uşaqların bədii-yaradıcılıq potensialının inkişafı şəraitində məktəbli və ətraf dünya arasında qarşılıqlı əlaqələrdə, təhsil prosesi daxilində qarşılıqlı münasibətlərdə yeni yanaşmalar əks olunur, burada əməkdaşlıq və qarşılıqlı yardım münasibətləri formalaşır. Bu baxımdan, alimlərin fikirlərinin müxtəlifliyi olduqda, biz yaradıcılığa həyat tərzi kimi baxırıq (Qmurman, 2001). Həmçinin biz yaradıcılığa uşağın şəxsiyyətinin özünüidarə

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

yollarından biri kimi də baxırıq. Burada şagirdin özünü dəyişdirməkdə onun ictimai əhəmiyyəti yeni estetik dəyərlər yaratmaqla görünür. Bədii-yaradıcılıq prosesini öz məntiqi və tamamlığı olan bütövlükdə bir hadisə kimi müəyyən etməklə, onun tərkib hissələri aşağıdakı kimidir: intuisiya, yaradıcılıq təsəvvürü, bədii-yaradıcılıq düşüncəsi, bacarığını biz bədii yaradıcılığın inkişafının amilləri kimi görürük. Onların inkişafı uşağın şəxsiyyətini (daxili dünyasını) müəyyən edir (Zabramskaya, Borovik, 2000). Uşağın psixikasının bütün sahələri təbii yolla yaradıcılığa incəsənət və təbiətlə cəlb olunur, bununla da həyatını saxta dəyərlərlə deyil, real dəyərlərlə doldurur. Bu, məktəblilərə incəsənətin daxili mahiyyətini mənimsəyərək öz əməyini gözəlliyə, özləri və ətrafındakılar üçün zövq mənbəyinə çevirməyə imkan verir. Buna görə də biz incəsənət vasitəsilə incəsənətin məzmunu və onun formalarının birliyində özünəməxsusluğunu nəzərdə tutan bədii mühitin həqiqətin (ətraf aləmin) əks olunmasının görürük. Ümumtəhsil məkanında biz bədii mühiti uşağın bədii və estetik inkişafına, yaradıcılıq fəaliyyətinə yönəlmiş hər hansı obyektiv reallıq kimi başa düşürük (Zobaçeva, 2002). Yaradıcılığın yaranma mənbələrindən biri təbiətin və insanın ilkin xaric edilməsinin aradan qaldırılmasıdır - bizə xarici aləmdən (bədii mühitdən) və uşağın şəxsiyyətindən (daxili dünyasından) gələn iki güclü axında görünən nümunənin axtarışı kimi təzahür edir. Onlar incəsənətdə yaradıcı fərdiyyət yaratmaqla, birləşmə birliyi ilə bənzərsiz məzmunlu və bədii dilli bir əsər yaradırlar, onlar üçün xüsusilə uşaqlar arasında xüsusi anlayış aydınlığı, ətraf aləmə qeyri-standart baxışlar xarakterikdir. Bu, tədqiqatımızda xarici aktivliyi (rəsm çəkmə prosesi) deyil, daxili - obrazın asılı olduğu, lakin ətraf həyatın bərabər olmayan “ideal” yaratma aktı kimi təsvir etmişik. Ruh vasitəsilə sınmış obraz təbiətdən “kor” deyil. Aparılan tədqiqat və eksperimental tədqiqatın nəticələrinin təhlili

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

kiçik məktəblilərin bədii-yaradıcılıq potensialının dinamikasında statistik əhəmiyyətli dəyişikliklərin olduğunu aşkar edərək irəli sürülən fərziyyəni təsdiqləmişdir. Bu məqalədə qeyd olunanları nəzərə alaraq, sonda belə bir nəticəyə gəlmək olar ki, bədii mühitin mövcudluğu məktəblinin təsviri fəaliyyətinin və bütövlükdə onun bədii yaradıcılığının inkişafı onun gələcəyə inteqrasiyası, dünyagörüşünün formalaşması onun gələcək həyatında aktivləşməsinə maksimum təsiri edir. Düzgün verilən estetik təhsil isə, gələcəyimizin flaqmanıdır.

## Ədəbiyyat

1. Abayeva, I., Barmaş, O. (1993). Əsas təhsilin məzmunu nədir? Tələbə məktəbdə. № 6.
2. Abayeva, I., Barlaş, O. (1994). Memarlıq-bədii yaradıcılığın inteqrativ kursu . Məktəbdə iddia. № 1.
3. Aminov, N. (1993). Məktəbdə incəsənət və ya incəsənət məktəbi? Məktəbdə iddia. № 5.
4. Basin, E.Y. (1985). Bədii yaradıcılıq psixologiyası. M.
5. Bondarevskaya, E.V., Kulneviç, S.V. (1999). Pedaqogika: humanist nəzəriyyələr və tərbiyə sistemlərində şəxsiyyət: Tələbə üçün dərs vəsaiti. və ən yüksək ped. təhsil müəssisələrinin, IPC və kollecin dinləyicilərinin. Rostov-n/D.
6. Qmurman, V.E. (2001). Ehtimal nəzəriyyəsi və riyazi statistika. M.
7. Zabramskaya, S.D., Borovik, O.V. (2000). Uşağın inkişafı bizim əlimizdədir. M.
8. Zobaçeva, R.D. (2002). Şəxsiyyətin mənəvi inkişafında bədii mühitin rolu. Perm.

IV BEYNƏLXALQ HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR KONFRANSI
19 dekabr 2023 / 46-49
IV INTERNATIONAL CONFERENCE ON HUMANITIES AND SOCIAL SCIENCE
19 december 2023 / 46-49
DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Elvin Qasımov**
Hərbi Elmi Tədqiqat İnstitutu
elvingasimov.nn@gmail.com

# MÜDAFİƏ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ HƏRBİ DİPLOMATİYANIN ROLU

***Açar sözlər:*** *xarici siyasət, müdafiə siyasəti, hərbi diplomatiya, hərbi-siyasi əməkdaşlıq, təhlükəsizlik çağırışları*
***Keywords:*** *foreign policy, defence policy, military diplomacy, military-political cooperation, secruty challanges*

İstər ilkin dövlət qurumları, istərsə də tarixin sonrakı mərhələsində yaranmış müxtəlif quruluşlu dövlətlər uyğun olaraq həm regionda mövcud olmuş dövlətlərlə, həm də dünyanın ayrı-ayrı qitələrində yerləşən dövlətlərlə müxtəlif xarakterli münasibətlərə malik olmuşlar. Maraqların uyğun gəlmədiyi, toqquşduğu hallarda bu münasibətlər gərginləşmiş, hərbi qarşıdurma formasını almış, müharibələrlə nəticələnmişdir. Davam etmə müddətindən asılı olmayaraq istənilən müharibə sonda danışıqlara, müqavilələrin imzalanmasına gətirib çıxarmış, münasibətlər tədricən normal məcraya dönmüşdür. Əlaqələrin sonrakı inkişafı üçün yeni mühit formalaşdırmışdır. Münasibətlərin dinc, sülh şəraitində inkişaf etdiyi mərhələlərdə isə qarşılıqlı əlaqələr daha dinamik xarakter almış, siyasi, iqtisadi, mədəni, hərbi əməkdaşlıq və s. kimi sahələri əhatə etmişdir.

Ən yeni dövr müəllifləri də diplomatiyanı ümumilikdə dövlətin xarici siyasətinin danışıqlar, dinc metodlar vasitəsilə həyata keçirilməsi üçün bir vasitə kimi nəzərdən keçirirlər. Ənənəvi mənada geniş istiqamətləri əhatə edən diplomatiyanın tərkib hissələrindən biri də hərbi diplomatiyadır. Hərbi

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

diplomatiya bütünlükdə diplomatiyanın xüsusi sahəsi kimi dövlətin təhlükəsizlik və müdafiə siyasəti sahəsində xarici siyasət maraqlarını həyata keçirilməsi ilə məşğul olur.

“Hərbi diplomatiya” termininə tərif vermək çox çətindir. Bu da “müdafiə diplomatiyası”, “təhlükəsizlik diplomatiyası” və s. kimi oxşar terminlərin tez-tez istifadə edilməsindən irəli gəlir. Müəyyən xüsusiyyətlərinə görə üst-üstə düşən konsepsiya və məqsədləri bölüşsələr də, onlar hədəflərin müəyyənləşdirilməsi və təcrübə baxımından "hərbi diplomatiya"dan (və bir-birindən) fərqlənirlər (1).

Hərbi diplomatiya, beynəlxalq əlaqələrdə hərbi güc tətbiq edilmədən ölkələrin milli maraqlarını qorumaq üçün hərbi imkanların istifadə olunmasıdır. Hərbi diplomatiya, hərbi güclə yanaşı siyasi, iqtisadi və mədəni tədbirləri də ehtiva edən bir yanaşmanı nəzərdə tutur (2).

Təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi baxımından beynəlxalq və regional əməkdaşlıq istiqamətləri üzrə vəzifələrin yerinə yetirilməsində hərbi diplomatiya aktuallıq kəsb edir. Müasir praktikada hərbi diplomatiyanın vəzifələrini yerləşmə ölkəsində həyata keçirən hərbi attaşelik aparatlarının (hərbi nümayəndəliklərin) vəzifələri olduqca çoxşaxəlidir və bunların miqyası ölkədən ölkəyə müxtəliflik göstərir.

Son dövrlərdə hərbi diplomatlar arasında aparılmış empirik araşdırmaya əsasən, müasir praktikada hərbi diplomatiyanın aşağıdakı beş əsas funksiyanı yerinə yetirdiyi qeyd olunur:

1. Yerləşmə dövlətinin silahlı qüvvələri və təhlükəsizlik vəziyyəti barədə informasiyanın toplanılması və təhlili.
2. Göndərən və qəbul edən dövlətlərin silahlı qüvvələri arasında əməkdaşlığa və ikitərəfli əlaqələrə töhfə vermək.

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

3. Qəbul edən dövlətə, göndərən dövlətin müdafiə qurumlarının rəsmilərinin səfərlərinin və dinc məqsədlər üçün hərbi bölmələrinin göndərilməsinin təşkili.
4. Göndərən və qəbul edən dövlətlər arasında hərbi-texniki əməkdaşlığın dəstəklənməsi.
5. Qəbul edən dövlətdə keçirilən rəsmi qəbullarda və digər rəsmi tədbirlərdə göndərən dövlətin və onun silahlı qüvvələrinin təmsil olunması (3).

Regional və beynəlxalq səviyyədə təhlükəsizliyə çağırışların artdığı və yeni xarakter aldığı bir dövrdə, hərbi diplomatiyanın vəzifələrini yerlərdə həyata keçirən hərbi attaşeliklərin və beynəlxalq təşkilatlardakı hərbi nümayəndəliklərin fəaliyyəti getdikcə önəm qazanmaqdadır. Hərbi sahədə baş verən hadisələri, dəyişiklikləri, aparılan islahatları akkreditə olunduqları dövlətdə (təşkilatda) bilavasitə izləmək, müdafiə qurumlarının hərbi-siyasi rəhbərliyi ilə birbaşa təmas yaratmaq və inkişaf etdirmək imkanı, yerləşmə dövlətində (təşkilatda) akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri (nümayəndələri) ilə maraq kəsb edən sahələrdəki hərbi-siyasi vəziyyətlə bağlı məlumat mübadiləsi kimi imkanlar baxımından hərbi attaşeliklərin (hərbi nümayəndəliklərin) fəaliyyəti xüsusilə əhəmiyyətlidir.

Milli təhlükəsizlik siyasətinin vacib tərkib hissəsi olan müdafiə siyasətinin həyata keçirilməsi bütün təhlükəsizlik şəraitlərində (dövrlərində) hərbi diplomatiyanın üzərinə xüsusi vəzifələr qoyur. Bu baxımdan dinc dövrdə tərəfdaş dövlətlərlə ikitərəfli və çoxtərəfli hərbi-siyasi əməkdaşlığın inkişaf etdirilməsi əsas tədbirdən biri kimi nəzərdə tutulur (4).

Ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə ölkəmizin regionda yaratmış olduğu reallıqlar müdafiə siyasətinin formalaşmasına təsir göstərməklə yanaşı hərbi diplomatiyamızın qarşısında da yeni çağırışlar yaradır.

**DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV**

## Ədəbiyyat

1. Sədiyev, S. (2022). Dövlətlərarası münasibətlərdə hərbi diplomatiyanın rolu. (https://mod.gov.az/az/pre/40094.html).
2. Yilmaz, C.I. (2016). Military Diplomacy (Defense Diplomacy). Paperback.
3. Pajtinka, E. (2016). Military Diplomacy and Its Present Functions, “Security Dimensions”. № 20, pp.179-194, DOI 10.24356/SD/20/9.
4. Azərbaycan Respublikasının Hərbi doktrinası. https://e-qanun.az/framework/19722

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

**Parviz Mammadov**
Azerbaijan National Academy of Science
parvizmammadov@gmail.com

# FINANCIAL STATEMENT ANALYSIS FOR PROFIT ORGANIZATIONS

***Keywords:*** *financial statement analysis, balance sheet, Profit or loss statement, cash flow statement, profitability ratios, efficiency ratios and liquidity ratios*

***Açar sözlər:*** *maliyyə hesabatlarının analizi, balans hesabatı, mənfəət və ya zərər haqqında hesabat, pul vəsaitlərinin hərəkəti haqqında hesabat, gəlirlilik əmsalları, effektivlik əmsalları və likvidlik əmsalları*

Financial statement analysis is the essential process for management accounting where management accounant are calculation ratios, make analysis and compare the company performance with competitors and/or industry performance. Process includes making balance sheet, income statement and cash flow statement in order to calculate the ratios. As a result, management accountat checks company past perfomance and may project future results for the company.

Balance sheet is the snapshot of company at specific point in the time, hence item in the balance sheet indicicates balances at spefic point in the year. For example: The company prepares the financial staements for today and yesterday the company had the 1000 AZN in the bank account but today it has 500 azn, so today cash will be equal to 500 azn.

Income statement shows the company performance for particual time period. It can be one year or 6 months or 1 month and etc. Company performance can be different for

DOI: https://doi.org/10.36719/2709-4197/2023/IV

different time periods; therefore, it does not mean that company one period performance can be same for rest of time.

Cash flow statement indiciates the cash inflow and outflow from 3 activities within one period. Those activities include the operating, financing and invesment activities.

Ratios include profitability, efficiency, liqudity and solvency ratios.

Profitability ratios assess the abilty of company to generate the profit. It includes gross profit margin, operating profit margin and net profit margin.

Efficiency ratios assess the abilty of company to generate sales or return over assets, capital employed or invested capital. It includes asset turnover, return on capital employed and return on the capial ratios.

Liquidity ratios assses the ability of company to pay short-term laibilities. It includes ratios such as current asset, quick ratios.

Solvency provides the information about how company is financed by long-term debt and equity. Typical ratio includes gearing ratio, debt/equity ratio and etc.

Financial statement analysis is the imporant part of decision-making process for investors, creditors, employees, management, financial analsyt. It shows company ability to generate profit, ability to pay its short-term and long-term liabilities and it helps project future performance and financial position of company.

## İÇİNDƏKİLƏR

**Günay Əkbərova**
İsmət İnönü və Türkiyədə liderlik paradiqmaları: modernləşmə və sosial transformasiya ....................................5
**Billurə Nuri**
Azərbaycan və ingilis dillərində dimunitivlik haqqında bəzi qeydlər ...........................................................................8
**Ayyət Abdullayev**
Müasir fransız və Azərbaycan dillərində səs təqlidi sözlərin qrammatik xüsusiyyətləri ..........................................11
**Nəsimi Novruzov**
Bazar iqtisadiyyatı şəraitində Azərbaycanda logistikanın inkişaf etdirilməsi problemləri və onların xüsusiyyətləri ............................................................14
**Vüsalə Əliyeva**
Fransız dilində emosional hal və vəziyyət bildirən din mənşəli frazeoloji vahidlər və onların Azərbaycan dilində ifadəsi ...................................................18
**Zumrud Huseynova**
Adaptation process in the postwar period ...............................20
**Elvin Abdullayev**
Artificial intelligence infrastructure ........................................22
**Zəhra Həşimovа**
Nəsimi yaradıcılığında “Cami-cəm" ifadəsinin mahiyyəti və təhlili ..........................................................................26
**Elmira Muxtarova**
İkinci Qarabağ müharibəsindən sonra Cənubi Koreya ilə mədəni əməkdaşlıq ..................................................................32
**Şəms Bünyatova**
Epistemoloji həqiqətin sonu: Jan Bodriyar .............................36
**Esmira Ağayeva**
Kiçik yaşlı şagirdlərin bədii-ədəbi kompozisiyalar vasitəsilə özünü ifadəsinin psixoloji və pedaqoji xüsusiyyətləri ............41

**Elvin Qasımov**
Müdafiə siyasətinin həyata keçirilməsində hərbi diplomatiyanin rolu ..................................................................46
**Parviz Mammadov**
Financial statement analysis for profit organizations .............50

İmzalandı: 16.12.2023
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 3,5 ç.v.
Sifariş: 705

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə.
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: info@aem.az